**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ABŞERON İQTİSADİ RAYONUNDA XİDMƏT SFERASI MÜƏSSİSƏLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5311.01-Müəssisələrin təşkili və idarə olunması

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Səbuhi Mais oğlu Həsənov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin “Marketinq” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor, əməkdar kənd təsərrüfat işçisi
**İslam Hacı oğlu İbrahimov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Arzu Nəcəf oğlu Həsənov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Elşən Qardaşxan oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru
**Ədalət Baba oğlu Əzizov**

Azərbaycan Respublikasının prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.10 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri:

iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffərli (İmanov)**

Dissertasiya şurasının elmi katibi:

iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri:

iqtisad elmləri doktoru, dosent
**Möhübbət Musa oğlu Hüseynov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Turizm xidməti iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biridir. Bunu inkişaf etmiş ölkələrin təcrübəsindən müşahidə etmək olar. Turizmin inkişafı təkcə dövlət büdcəsinin formalaşması və ticarət balansının sabitləşməsinə deyil, həmçinin işsizliyin aradan qalxmasına, sahibkarlıq subyektlərinin və iqtisadi fəaliyyət sahələrinin sosial-iqtisadi inkişafına, həyat səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərir. Postsənaye cəmiyyətində xidmətlər sektorunun əsas tərkib hissələrindən biri olan turizm xidmətləri bir çox ölkələrin iqtisadiyyatında əhəmiyyətli rola malikdir.

Qeyri-neft sektorunun aparıcı sahələrindən və regionlarda təbii ehtiyatların mövcudluğu və məşğulluğun təmin edilməsində mühüm rolu baxımından turizm xidmətləri Azərbaycanda iqtisadi inkişafın prioritet istiqamətlərindən biri kimi qiymətləndirilir. Turizmin inkişafı insanların yüksək həyat səviyyəsi ilə təmin olunması, həm sahibkarlıq subyektlərinin və həmçinin ölkə iqtisadiyyatının kompleks inkişafı baxımından dövlət Azərbaycanda turizm xidmətlərinin inkişafına böyük dəstək göstərir.

Azərbaycanda turizm sektorunun inkişafını təmin etmək məqsədi ilə 1999-cu ildə “Turizm haqqında” Azərbaycan Respublikasının qanunun qəbul edilmiş, 2001-ci ilin 18 aprelində Gənclər İdman və Turizm Nazirliyi yaradılmış, 2002-ci ilin avqustunda təsdiq olunmuş “Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı” və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər) Dövlət Proqramları, 2011-ci ilin ölkədə “Turizm ili” elan edilmiş, 2025-ci il və sonrakı illərə hədəflənmiş tədbirlərin həyata keçirilməsini özündə ehtiva edən Azərbaycan Respublikası Prezidenti tərəfindən 2016 ci il 6 dekabr fərmanı ilə təsdiq olunmuş “Azərbaycanda ixtisaslaşdırılmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” və 2018-ci il 21 sentyabrda yaradılmış “Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi” və s. turizm xidmətlərinin inkişafına təkan vermişdir. Strateji Yol Xəritəsində qeyd edilir ki, *“milli iqtisadiyyatın inkişaf strategiyasında prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizmin müəyyənləşdirilməsi*

*turizmin inkişafı istiqamətində görülən işlərin davamlılığına xidmət etməklə yanaşı, Azərbaycan Respublikasının cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutmasına imkan yaradacaq, eyni zamanda, qarşılıqlı əlaqələrdən və mövcud turizm potensialından səmərəli istifadə edilməklə turizm sektorunun iştirakçıları arasında əməkdaşlığın inkişafına və Azərbaycanda turizm xidmətləri üzrə keyfiyyətin yüksəldilməsinə gətirib çıxaracaqdır."*[1]

"Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Respublika Prezidentinin 07 iyul 2021-ci il tarixli fərmanına uyğun olaraq Abşeron iqtisadi rayonu yenidən bölüşdürülərək Abşeron-Xızı iqtisadi rayonuna (Abşeron, Xızı və Şumqayıt şəhəri) və Bakı iqtisadi rayonuna ayrılıb. Bununla əlaqədar tədqiqat obyekti kimi araşdırmalara Bakı iqtisadi rayonu daxil edilməmişdir.

Ölkədə turizm bazasının inkişaf etdirilməsi, müasir dövrün tələblərinə cavab verən turizm xidmətlərinin yaradılması, bu sahənin hüquqi bazasının və dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması, rəqabətədavamlı qiymət təklifinin təmin edilməsi nəinki turizmin inkişafına, həmçinin, onunla əlaqədar bütün fəaliyyət sahələrinin inkişafına şərait yarada bilər. Bu baxımdan ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri kimi turizm xidmətlərinin inkişafına istiqamətlənmiş ardıcıl və məqsədyönlü addımların atılması zəruri şərtdir. Bununla yanaşı Azərbaycanda, xüsusilə Abşeron iqtisadi rayonunda turizm xidməti müəssisələrinin formalaşması, onların ölkə və region səviyyəsində fəaliyyəti, məşğulluğa təsiri, regionda turizm infrastrukturunun mövcud vəziyyəti və turizm xidmətini həyata keçirən müəssisələrə investisiya qoyuluşlarından səmərli istifadə kimi məsələlər tələbatdan geri qalır. Qeyd olunanlar tədqiqat mövzusunun aktual xarakter daşıdığını və obyektiv zəruriliyini göstərir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra turizm xidmətləri müəssisələrinin idarə edilməsi və inkişaf istiqamətlərinin müəyyən olunması ilə əlaqədar elmi tədqiqatlar diqqət mərkəzində olmuşdur. Turizm xidmətləri ilə bağlı Azərbaycanın iqtisadçı

---

[1] Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. // – Bakı: 6 dekabr 2016-cı il. – 98 s.

alimləri, Z.Ə.Səmədzadə, İ.M.Abbasov, İ.H. İbrahimov, B.X.Ataşov, G.Ə.Gənciyev, T.N.Əliyev, Ə.X.Nuriyev, Ə.Q.Əlirzayev, F.Q.Abbasova, H.B.Soltanova, B.Ə.Bilalov, Ç.G.Gülalıyev, R.Ş.Muradov, S.H.Rəhimov, A.Ə.Əzizov, Q.Ş.Məmmədov, Ç.R.İmamverdiyeva, M.K.Abadov, N.C.Qafarov, A.N.Həsənov və digərləri elmi-təcrübi məsələlərini araşdırmışlar. Xarici ölkənin tədqiqatçı alimləri Z.Eralp, J.N.Bhagwati, L.Casson, C.R.Goeldner, J.R.Ritchie, R.W.McIntosh, E.İnskeep, S.A.Roney, S.P.Kuzik, E.B.Maslova, V.L.Poqodina, A.V.Yemelyanov və digərlərinin tədqiqat və elmi araşdırmaları, bu sahədəki mövcud problemlərə və müasir inkişaf meyllərinə dair baxışları mövcuddur.

Bununla belə, turizm xidmətlərinin iqtisadiyyatda aparıcı rola malik olması, onun ölkənin sosial-iqtisadi inkişafına təsiri, müvafiq sektorda sahibkarlığın formalaşması və inkişafı xüsusiyyətlərinin nəzəri və metodoloji aspektləri kompeks tədqiq olunmamışdır. Bu baxımdan turizm xidmətləri bazarının elmi-nəzəri məsələləri, turizmin inkişaf meylləri və turizm müəssisələrinin mövcud vəziyyəti, inkişaf istiqamətləri, tənzimlənməsi, infrastrukturun təkmilləşdirilməsi və s. problemlərin həlli mövzunun aktallığını şərtləndirir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyekti Abşeron-Xızı iqtisadi rayonunda turizm xidmətlərini həyata keçirən müəssisələr təşkil edir.

Tədqiqatın predmeti Azərbaycanda xüsusilə, Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrinin formalaşması və idarə edilməsi qanunauyğunluqlar, onları şərtləndirən amillər və iqtisadi münasibətlərdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ölkədə xidmət bazarının formalaşmasının elmi-nəzəri məsələlərinin araşdırılmasından, Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrinin mövcud vəziyyətinin qiymətləndirilməsindən və Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti sferası müəssisələrinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsindən və təkliflər hazırlanmasından ibarətdir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- xidmətlərin formalaşması və inkişaf ilə əlaqədar elmi-nəzəri məsələləri araşdırmaq və turizmi xidmətlərin əsas növü kimi təhlil etmək;

- turizm xidmətlərini iqtisadiyyatın aparıcı sahələrindən biri olaraq onun ölkə iqtisadiyyatının inkişafında rolunu əsaslandırmaq və turizm xidmətləri bazarının nəzəri-metodoloji əsaslarlarını tədqiq etmək;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrinin və sahibkarlığın mövcud vəziyyətini təhlil etmək;

- Abşeron-Xızı iqtisadi rayonunda turizmin inkişafının məşğulluğa təsiri və infrastrukturun mövcud vəziyyətini təhlil etmək və təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrində investisiya qoyuluşlarından səmərəli istifadəni qiymətləndirmək;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm inkişafının sosial-iqtisadi inkişafa təsirini təhlil etmək;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrində dövlət tənzimləmə mexanizminin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm xidmətlərinin inkişaf istiqamətlərini müəyyənləşdirmək və s. təkliflər hazırlamaq.

**Tədqiqat metodları.** Materialların təhlilində iqtisadi-statistik, müqayisə, ümumiləşdirmə, təhlil metodlarından istifadə edərək Azərbaycanda və xüsusilə, Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrinin mövcud vəziyyəti araşdırılmışdır. İqtisadçı alimlərin turizmin inkişaf problemlərinə həsr olunmuş əsərləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər kabinetinin qərarları və digər normativ sənədlər tədqiqatın metodoloji əsasını təşkil etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin əsas müddəalarını aşağıdakılar təşkil edir.

- Yeni iqtisadi və qloballaşma şəraitində turizm xidmətinin formalaşması və onun inkişafının elmi əsaslarının müəyyən edilməsinə ehtiyac yaranmışdır;

- Azərbaycanda regionların disproporsional inkişafın mövcudluğu şəraitində turizm sahəsində sahibkarlığın inkişaf təkamülü və meyllərini araşdırmağa və qiymətləndirməyə ehtiyac vardır;

- Azərbaycanda turizm xidmətinin sosial-iqtisadi inkişafa təsiri aşkar edilməli, təkliflər hazırlanmalıdır;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrinin mövcud vəziyyəti qiymətləndirilməli və meyllər təhlil edilməlidir;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm infrastrukturunun mövcud vəziyyəti qiymətləndirilməli və inkişaf istiqamətləri müəyyənləşdirilməlidir;

- Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü aspektindən Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrində investisiya qoyuluşlarından səmərəli istifadənin qiymətləndirilməsi və təkliflərin hazırlanmasına ehtiyac yaranmışdır;

- Abşeron-Xızı iqtisadi rayonunda turizmin inkişafı və məşğulluğun mövcud vəziyyəti aşkar edilməli, təkliflər hazırlanmalıdır;

- Turizm xidməti müəssisələrində dövlət tənzimləmə mexanizminin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilməlidir və s.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın əsas elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- postsənaye cəmiyyətinin inkişafı fonunda, xidmətlər iqtisadiyyatının mahiyyəti, nəzəri əsasları təsnifləşdirilmiş və əsas istiqamətləri konkretləşdirilmişdir;

- xidmətlər bazarında turizm xidmətlərinin yeri və rolu əsaslandırılmışdır;

- Azərbaycanda turizm sahibkarlığının inkişaf prioritetləri müəyyən edilmişdir;

- turizm xidmətlərinin sosial-iqtisadi inkişafa və digər sahələrlə (nəqliyyat, rabitə, sənaye, ətraf mühit, sığorta, kənd təsərrüfatı) qarşılıqlı əlaqəsi və təsirləri müəyyən edilmişdir;

- Azərbaycanda və Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrinin (mehmanxana və mehmanxana tipli müəssisələr, səyahət agentlikləri, nəqliyyat xidmətləri üzrə və s.) potensial imkanları təhlil edilmiş və qiymətləndirilmişdir;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm infrastrukturunun modernləşdirilməsinin istiqamətləri müəyyənləşdirilmişdir;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm sektorunun investisiya cəlbediciliyi qiymətləndirilmişdir;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm inkişafının məşğulluğa təsiri qiymətləndirilmişdir;

- Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrinin inkişafının təmin edilməsi məqsədi ilə dövlət tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrindən regional sosial-iqtisadi inkişaf proqramlarının hazırlanmasında, xidmət sferası müəssisələrinin, xüsusi ilə turizm sektorunun tənzimlənməsinə dair ümumiləşdirmələrdə və əsas istiqamətlərin müəyyənləşdirilməsində istifadə edilə bilər. Tədqiqat nəticələrindən turizmin inkişafına maneə ola biləcək problemlərin həlli yollarının müəyyənləşdirilməsi və sosial-iqtisadi inkişafa nail olunması məsələləri dövlət orqanları və sahibkarlıq subyektlərinin fəaliyyəti üçün əhəmiyyətlidir. Tədqiqat işinin təklif və tövsiyələri iqtisad yönümlü ali təhsil müəssisələrində uyğun fənlərin tədrisi prosesində faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatla əlaqədar olaraq Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi respublika və beynəlxalq konfranslarda çıxışlar edilmiş və məqalələr hazırlanmışdır. Dissertasiya işinin əsas nəzəri müddəaları, nəticə və təklifləri həmçinin Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda 11 elmi məqalə və tezis, o cümlədən 1 məqalə və 1 tezis xaricdə çap olunmuşdur. Tədqiqatın nəticələri Azərbaycan Respublikası Turizm və Menecment Universiteti tərəfindən istifadə üçün qəbul olunmuşdur (№ 6, 04.03.2022).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işi 1,5 interval kompüter yazısında 149 səhifəni əhatə etməklə özündə 15 cədvəl, 7 sxem, 3 diqaram və 1 şəkil birləşdirir. Dissertasiya işinin Giriş hissəsində 11 686 şərti işarə; I Fəsildə 73 659 şərti işarə; II Fəsildə 61 278 şərti işarə; III fəsildə 84 395 şərti işarə; Nəticə hissəsində 8 104 şərti işarə öz əksini tapmışdır. Dissertasiyanın işarə sayı cədvəllər, sxemlər və istifadə edilmiş ədəbiyyat istisna olmaqla 239 122 işarədir.

# TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın nəticələrinin sınaqlarının keçirilməsi və istifadə olunması şərh edilmişdir.

**Dissertasiya işinin "Xidmət bazarinin formalaşmasının elmi və nəzəri məsələləri"nə həsr edilmiş birinci fəslində** turizm xidmətinin formalaşması və onun inkişafının elmi əsasları, Azərbaycanda turizm sahibkarlığının inkişafı və onu şərtləndirən amillər, Azərbaycanda turizm xidmətinin sosial-iqtisadi inkişafa təsiri kimi məsələlər araşdırılır.

Araşdırmalar göstərir ki, 1950-ci illərdə ABŞ dünyanın ilk "xidmət iqtisadiyyatı"nın inkişaf etdiyi ölkə olmuşdur. Belə hesab edilirdi ki, işçi qüvvəsinin təxminən yarısı xidmətlərin istehsalı ilə məşğul olmaqda idi.

"Xidmət iqtisadiyyatı" konsepsiyası ilk dəfə olaraq 1965-ci ildə Viktor Fuchs tərəfindən təklif olunmuşdur. O, 1968-ci ildə xidmət sektorunun Amerika iqtisadiyyatı üçün artan əhəmiyyətini və onun nəticələrini araşdırmışdır. İkinci Dünya müharibəsindən sonra məşğulluq artımının daha çox xidmət sektorunun payına düşdüyü müşahidə olunurdu.

Xidmətlər iqtisadiyyatının qısa zaman çərçivəsində və intensiv formada inkişafının əsas səbəbi kimi insanlarının rifahının maksimum şəkildə təmin etməsi xüsusiyyətə malik olmasıdır. Bunun da əsasını insanların gəlirlərinin ölkə üzrə təminatı təşkil edir. Belə ki, insanlarının gəlirlərinin əsas mənbəyinin məşğulluq olduğunu nəzərə alsaq görərik ki, ölkədə insanların məşğulluğunun maksimum şəkildə təmin edilməsi xidmət sferasının hərəkətverici qüvvəsidir. Çünki insanın gəlirlərlə təminatı onun xidmətlərə olan tələbatlarını artırır, bu isə öz növbəsində xidmətlər iqtisadiyyatının inkişafını zəruri şərtə çevrilir.

Disstertasiyada göstərilir ki, hazırda Dünya Ticarət Təşkilatı tərəfindən istifadə olunan xidmətlərin təsnifatına bir çox istiqamətlər daxil edilir. Bu təsnifata tikinti, ekoloji, maliyyə, təhsil, nəqliyyat, turizm, biznes, sosial və s. xidmətlər daxil edilmişdir. Göründüyü

kimi, turizm xidmətləri təsnifatda mühüm yer tutur.




**Sxem 1. Dünya ticarət təşkilatının istifadə etdiyi xidmətlərin təsnifatı.** (Sxem müəllif tərəfindən hazırlanmışdır)

Dissertasiyada turizm xidmətlərinin formalaşması və inkişafı ehtiyacların dəyişməsi, fizioloji tələblərin artması və cəmiyyətin artan tələbləri, həmçinin texnoloji dəyişikliklərlə əlaqələndirilir. Müəllif Şumerlərin yazı, pul və ticarəti icad etməklə turizmə ilk töhfəni vermələrini, Antik Yunanıstan, Qədim Roma, Avropa ölkələri və digərlərinin turizmə olan tələbin artmasında rolu və hazırkı turizmin inkişafında təbii ehtiyatlar, iqlim şəraiti, məhsul və xidmətlərin inkişafını əsaslandırır.

Dissertasiyada göstərilir ki, *sahibkarlıq fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə etmək məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericilikdə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir.*[2] Turizm sahibkarlığı turizm xidmətlərinin reallaşdırılması vasitəsi olub, hazırda bir çox inkişaf etmiş ölkələrin iqtisadiyyatının əsas multiplikativ iqtisadi fəaliyyət sahələrindən biri kimi qəbul

---

[2] Beynəlxalq iqtisadi münasibətlər: dərslik / G.Ə.Gənciyev, Ə.R.Ələkbərov, A.M.Əliyev [və b.] – Bakı: Azərbaycan Kooperasiya Universiteti, – 2010. – 396 s.

edilməkdədir. Bazar münasibətləri sisteminin əsas inkişaf istiqaməti kimi qəbul etmiş ölkələrdə turizmin dinamik inkişafı bu sahənin daha geniş miqyasda tədqiqi və inkişaf perespektivlərinin müəyyən edilməsi zərurətini meydana çıxarır. Müstəqilliyini yenidən bərpa etmiş Azərbaycanın da zəngin turizm potensialına malik olması ölkədə turizm sahibkarlığının inkişafını şərtləndirən amillərdəndir.

Bəzi tədqiqatlarda Azərbaycanda turizmin yaranması və formalaşma tarixinin XX əsrin əvvəllərinə təsadüf edildiyi qeyd olunur. Buna əsas kimi 1908-ci ildə Krım Qafqaz dağ klubunun bir bölməsinin Bakıda yaradılmasını göstərilir. Bu bölmənin üzərinə düşən əsas vəzifə Qafqaz regionunda turizm sferası ilə əlaqədar tədqiqatların aparılması və səyahət təşkil edilməsi idi. Həmçinin, XIX əsrin sonları və XX əsrin başlanğıcında Bakı karvansaraylarından otel kimi istifadə olunmağa başlanılması da Azərbaycanda turizmin yaranması dövrü kimi qeyd olunur. Qeyd olunanlar turizmin inkişafı və təkamülü baxımındandan mühüm əhəmiyyətə malik olan proseslərdən olsa da, fikrimizcə, bunları Azərbaycanda turizmin yaranması tarixi kimi qeyd etmək olmaz. Çünki, Böyük İpək Yolunun Azərbaycandan keçməsi və Azərbaycanın böyük şəhərlərində karvansaraların yaranmasını Azərbaycanda turizmin sahibkarlığının formalaşması dövrü kimi qiymətləndirilə bilər.

Dissertasiyada Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra sistemli tədbirlər həyata keçirildiyi, normativ sənədlər qəbul edildiyi, ölkələr arasında əməkdaşlığın genişləndirildiyi əsaslandırılmışdır. Turizm sahibkarlığının inkişafını şərtləndirən amil kimi xüsusi mülkiyyətə geniş yer verilməsi, infrastrukturlar yaradılması, xidmətlərin təşkili araşdırılmışdır. Bununla yanaşı işdə erməni təcavüzkarlarının əraziləri işğal etmələri, təbii sərvətlərimizi dağıtmaları, onun ciddi fəsadları və iqtisadi inkişada mənfi təsirləri əks etdirilir.

Disertasiyada Azərbaycanın təbiətinin unikal gözəlliyə malik olması ölkədə turizmin inkişafını təmin edəcək və bu inkişafı şərtləndirən amillər də araşdırılır. Qeyd edilir ki, ölkəmizə ziyarət edən xarici turistlərin sayı getdikcə artır.

**Cədvəl 1.**

**2023-cü ildə xarici ölkələrdən ölkəmizi ziyarət edən xarici vətəndaşların xüsusi çəkisi**

| Ölkələr | 2022 | 2023 | 2023-ci ildə 2022-ci ilə görə dəyişməsi, faizlə | 2023-cü ildə ölkələrin ümumi saya görə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|---|
| **Cəmi** | **1 602 600** | **2 085 790** | **30** | **100** |
| o cümlədən ölkələr üzrə: | | | | |
| Rusiya Federasiyası | 446 831 | 624 753 | 39 | 30 |
| Türkiyə | 311 880 | 378 045 | 21 | 18 |
| İran | 170 533 | 165 214 | -4 | 8 |
| Səudiyyə Ərəbistanı | 96 231 | 80 675 | -12 | 3,9 |
| Gürcüstan | 82 225 | 104 450 | 27 | 5 |

***Mənbə:*** *cədvəl ADSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*[3]

Son illərdə xarici ölkələrdən Azərbaycana gələn vətəndaşlar arasında işgüzar turistlərin özünəməxsus çəkisi vardır. 2023-cü ildə Azərbaycana turizm məqsəd ilə səfər edənlərin sayı ümumi səfər edənlərin sayının 90%-dən çoxunu təşkil edir. Tədqiqat göstərir ki, gələcəkdə turizmin ölkənin iqtisadiyyatına böyük töhfə verəcək bir sektor halına gəlməsini gözləmək olar.

*Müstəqilliyini 1991-ci ildə bərpa etdikdən sonra Azərbaycan müstəqil dövlət olaraq siyasi, ictimai və iqtisadi problemlərlə qarşı-qarşıya gəlmişdi. Azərbaycan öz iqtisadiyyatının gələcək inkişafını sərbəst bazar iqtisadiyyatına keçməkdə görmüş və bu yolda cəsarətli addımlar ataraq iqtisadiyyatını sabitliklə idarə edən və gələcəyə aparan əhəmiyyətli qanunlar qəbul etmişdir.*[4]

Prof. İ.M. Abbasovun belə bir fikri ilə razılaşmaq olar- *“Turizm sənayesi turizm xidmətlərinin və turizm tələbatlı malların satışı ilə məşqul olan istehsal, ticarət və nəqliyyat müəssisələrinin məcmusu kimi başa düşülməlidir. Bunulla əlaqədar turizm*

[3] Azərbaycanda turizm. Statistik məcmuə. // – Bakı: 2024. – 104 s.
[4] Aşurbəyli, S.B. Bakı şəhərinin tarixi./S.B.Aşurbəyli – Bakı: Elm, – 1998. – 212 s.

*sənayesinin inkişafının stimullaşdırılmasının həyata keçirilməsinə böyük ehtiyac vardır. Bu prosesdə dövlətin özəl sektor üçün əlverişli şəraitin yaradılmasında rolu böyükdür."*[5] Bununla yanaşı, Azərbaycanda turizm müəssisələrinin sayı artsa da turizmdə yaradılan əlavə dəyər az artır. Bunu aşağıdakı cədvəl məlumatlarından görmək olar.

Azərbaycanda turizm üçün xarakterik sahələrin əsas göstəriciləri təhlil edilmiş və müəyyən olunmuşdur. 2023-cü ildə 2019-cu ilə nisbətən turizm sahəsində çalışanların sayında 20% artım olmuşdur. Turizm sahəsində yaradılan əlavə dəyərdə 35% artım müşahidə olunmuş, onun 2023-cü ildə ÜDM-də xüsusi çəkisi isə 4,1% təşkil etmişdir.

Azərbaycanda xidmət sahələrinin, o cümlədən turizmin inkişaf səviyyəsini və turizmin ölkə iqtisadiyyatındakı rolunu təhlil edərkən onun müxtəlif səviyyədə olduğunu görmək olar. Araşdırmalar göstərir ki, milli iqtisadiyyatın əsas tərkib elementlərindən olan xidmət sfeasının inkişafına xüsusi diqqət yetirilir.

**Cədvəl 2.**

**Azərbaycanda turizm üçün xarakterik sahələrin əsas göstəriciləri**

| | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2023-cü ildə 2019-cu ilə nisbətən, faizlə, dəfə |
|---|---|---|---|---|---|---|
| Turizm sahəsində çalışanların sayı, nəfər | 58972 | 49019 | 53717 | 63109 | 70866 | 20 |
| Turizm sahəsində yaradılan əlavə dəyər, milyon manat | 3704,9 | 1386,7 | 1939,7 | 3917,8 | 5002,2 | 35 |
| Turizm sahəsində yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, faizlə | 4,5 | 1,9 | 2,1 | 2,9 | 4,1 | - |
| Turizm sahəsinə yönəldilən investisiyalar, milyon manat | 133,7 | 79,3 | 242,4 | 100,5 | 479,0 | 3,6 dəfə |

*Mənbə: Cədvəl ADSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*[6]

[5] Abbasov, İ.M. "Dünya iqtisadiyyatı və Azərbaycanda turizmin inkişaf istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Giriş nitqi. // – Bakı: 2016. – 6 s.
[6] Azərbaycanda turizm. Statistik məcmuə. // – Bakı: 2024. – 104 s.

Ölkə iqtisadiyyatında turizm fəaliyyətinin təhlili zamanı müəyyən edilmişdir ki, mehmanxana və mehmanxana tipli müəssisələr və onların əldə etdikləri gəlirlər xeyli fərqlənir. Respublikada göstərilən müəssisələrin iqtisadi rayonlar üzrə gəlirlərinə diqqət yetirdikdə müşahidə edirik ki, bu amil iqtisadi rayonlar üzrə fərqlər xeyli dəyişir.

**Cədvəl 3.**

**Azərbaycanda mehmanxana və mehmanxana tipli müəssisələrin Abşeron-Xızı iqtisadi rayonu üzrə gəlirləri (min manat)**

| İqtisadi rayonlar | 2010 | 2015 | 2019 | 2023 | 2023-ci ildə iqtisadi rayonun ölkə üzrə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|---|---|
| Ölkə üzrə - cəmi | 105.888,8 | 183.055,1 | 450 188,5 | 488.828,0 | 100 |
| O cümlədən: | | | | | |
| Bakı şəhəri | 79.864,7 | 149.219,6 | 335 760,9 | 314 117,4 | 64 |
| Abşeron-Xızı iqtisadi rayonu | 840,8 | 1.315,9 | 2 666,1 | 2 421,3 | 0,4 |

*Mənbə: Cədvəl ADSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*[7]

2023-cü ildə Bakı şəhərində fəaliyyət göstərən həmin müəssisələrin gəlirləri ölkə üzrə ümumi gəlirlərin 64%-ni təşkil edir. Müvafiq göstərici üzrə fərqlənən iqtisadi rayonlar Quba-Xaçmaz və Gəncə-Qazax iqtisadi rayonlarıdır. Halbuki Abşeron-Xızı iqtisadi rayonunun ölkə üzrə xüsusi çəkisi 0,4% təşkil edir.

Müəyyən edilir ki, respublikada turizmin davamlı inkişafına və idarə edilməsinə təsir edən müsbət və mənfi amillər həm daxili, həm də xarici amillərlə əlaqəlidir. Hesab edilir ki, turizmin inkişafı ilə əlaqədar yeni proqramlar işlənməməsi, turizmə dair praktiki biliklərin aşağı səviyyəsi, reklam işinin qənaətbəxş olmaması, kənd əhalisinin həyat səviyyəsinin qeyri-stabilliyi, koronavirus yoluxması kimi xəstəliklər və s. turizm xidmətlərinin inkişafına mane olan amillər kimi qiymətləndirilir. Göstəricilərə əsasən turizmin sosial-iqtisadi inkişafa müsbət və mənfi təsirləri modelini aşağıdakı kimi formalaşdırmaq olar:

[7] Azərbaycanda turizm. Statistik məcmuə. // – Bakı: 2024. – 104 s.




**Sxem 2. Turizmin davamlı inkişaf strategiyasının formalaşma modeli**

*Mənbə: Sxem müəllif tərəfindən tərtib edilmişdir.*

**Dissertasiyanın "Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti sferası müəssisələrinin mövcud vəziyyəti və onun qiymətləndirilməsi" adlı ikinci fəslində** Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti müəssisələrinin, həmçinin turizm infrastrukturunun mövcud vəziyyətinin qiymətləndirilməsi, turizm xidməti müəssisələrində investisiya qoyuluşlarından səmərəli istifadə və bu iqtisadi rayonda turizmin inkişafı və məşğulluğun mövcud vəziyyəti tədqiq edilmişdir.

Araşdırmalar göstərir ki, son 20 ildə Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsinə istiqamətlənmiş məqsədyönlü iqtisadi siyasət milli iqtisadiyyatda neft sektorunun payının azalması, digər tərəfdən isə qeyri-neft sektorunun payının artmasına səbəb olmuşdur. Belə ki, bu inkişaf digər sahələrlə yanaşı xidmət sahələrinin inkişafının prioritet olmasına imkan vermişdir. Xidmət sektorunun aparıcı istiqamətlərindən biri olan turizm xidmətləri müxtəlif xidmət sahələri ilə sıx əlaqəli olduğundan onun ölkədə inkişafına nail olunması bir sıra iqtisadi fəaliyyət sahələrində formalaşması və qarşılıqlı inkişafına nail olunmasını zəruri şərtə çevirir. Tədqiqat göstərir ki, turizm- bir sıra fəaliyyət sahələrini özündə birləşdirən və geniş əhatə dairəsinə malik olan xidmətlərin məcmusudur. Qeyd olunan xidmətlər tərtib etdiyimiz sxem 3-də öz əksini tapmışdır.




**Sxem 3. Turizm xidmətinin digər xidmətlərlə əlaqəsi.** (sxem müəllif tərəfindən hazırlanmışdır)

Turizmdə sahibkarlıq özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Turizmin sahələrinin miqyası və tərkibində müxtəlif təyinatlı fəaliyyət sahələrini birləşdirməsi, orada olan sahibkarlıq imkanlarını da artırır. Turizm xidmətlərində sahibkarlığın istiqamətlərini aşağıdakı kimi təsnifləşdirilməsi təklif edilir: 1) Sərnişin daşınması; 2) Mehmanxana və bununla əlaqədar xidmətlər; 3) Turizm məhsulları istehsalı; 4) Səhiyyə, təhsil, sosial xidmətlər; 5) Atraksionlar, əyləncə, rekreasiya və s.

Ölkədə turizm xidməti müəssisələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi zamanı tədqiq edilməsi zəruri olan elementlərdən biri də mehmanxana və mehmanxana tipli müəssisələr və onların əsas göstəriciləridir. Bu göstəricilərə əsasən ölkədə fəaliyyət göstərən müvafiq müəssisələrin sayı, nömrələrin sayı və birdəfəlik tutumu, yerləşdirilən şəxslərin sayı, işçilərin sayı və maliyyə göstəriciləri və s. daxildir.

**Cədvəl 4.**

**Ölkədə mehmanxana və mehmanxana tipli müəssisələrin əsas göstəriciləri**

| | **2015** | **2021** | **2022** | **2023** | **2023-cü ildə 2021-ci ilə nisbətən, faiz, dəfə.** |
|---|---|---|---|---|---|
| Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, vahid | 536 | 712 | 757 | 809 | 13,6 |
| Birdəfəlik tutum, yer | 37.278 | 53.049 | 56.562 | 59.407 | 11,9 |
| Nömrələrin sayı, vahid | 17.953 | 25.445 | 27.312 | 28.688 | 12,7 |
| Yerləşdirilmiş şəxslərin sayı-cəmi, nəfər | 838.145 | 1.172.123 | 1.697.358 | 1.945.059 | 65,9 |
| İşçilərin sayı, nəfər | 8.364 | 11.143 | 12.314 | 13.608 | 22 |
| Müəssisələrin istismarından daxil olan gəlir, min manatla | 183.055,1 | 209.687,3 | 355.322,1 | 488.828,0 | 2,3 d. |
| Müəssisələrin istismar xərcləri, min manatla | 171.730,8 | 231.468 | 296.805,6 | 390.095,1 | 68,5 |
| Büdcəyə ödənilmiş ƏDV və digər vergilər, min manatla | 28.098,5 | 12.819,6 | 25.145,2 | 29.281,8 | 2,3 d. |

*Mənbə: Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır.*[8]

[8] Azərbaycanda turizm. Statistik məcmuə. // – Bakı: 2024. – 104 s.

Cədvəl məlumatlarından 2023-ci ildə 2021-ci ilə nisbətən ölkədə fəaliyyət göstərən müvafiq müəssisələrin sayında 13,6%, nömrələrin sayı və birdəfəlik tutumunda 11,9%, yerləşdirilən şəxslərin sayında 65,9%, işçilərin sayında 22%, müəssisələrin istismarı nəticəsində daxil olan gəlirlərdə 2,3 dəfə, müəssisələrin istismarı üzrə xərclərdə 68,5%, büdcəyə ödənilmiş ƏDV və digər vergilərdə isə 2,3 dəfə artım müşahidə olunur. Turistlərin gecələmələrinin təmin edilməsi tarixən qədim zamanlara söykənir. Qədim dövrlərdə bu missiyanı karvansaralar yerinə yetirərək səyahətçiləri qonaq edirdilər. Günümüzdə mehmanxanalar və onların göstərdikləri xidmətlərin əsas tərkib elementlərindən olan qidalanma xidmətləri böyük əhəmiyyət kəsb edirlər. Artıq bir çox mehmanxanalar özlərində xüsusi otaqları, iclas və konfrans zallarını, restoranları, barları, əyləncə obyektlərini, hədiyyə mağazalarını, oyun zallarını, sağlamlıq klubları və digər xidmətləri kordinasiya edir.

**Cədvəl 5.**

**İqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmələrin sayı (vahid).**

| | 2010 | 2021 | 2022 | 2023 | 2023-cü ildə 2021-ci ilə nisbətən, faizlə. |
|---|---|---|---|---|---|
| **Ölkə üzrə - cəmi** | **1.358.286** | **1.788.716** | **2.647.178** | **3.422.234** | **91** |
| **Bakı şəhəri** | **799.607** | **870.503** | **1.458.194** | **1.971.770** | **2,2 d.** |
| **Abşeron-Xızı iqtisadi rayonu** | **9.148** | **9.775** | **10.374** | **18.110** | **85** |
| Xızı rayonu | 992 | 722 | 681 | 2.112 | 2,9 d. |
| Abşeron rayonu | 2.746 | 2.445 | 5.027 | 9.571 | 3,9 d. |
| Sumqayıt şəhəri | 5.410 | 6.608 | 4.666 | 9.427 | 43 |

*Mənbə: Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır.*[9]

Araşdırmalar göstərir ki, son illərdə ölkədə mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmələrin sayında əsaslı artım müşahidə olunmaqdadır. Belə ki, 2021-ci il ilə müqayisədə 2023-cü ildə ölkə üzrə bu artım 91% olmuşdur. 2023-cü il üzrə bu göstərici Bakı şəhəri üçün 2 dəfədən çox, Abşeron-Xızı iqtisadi rayonunda isə artım 85%-dir.

---

[9] Azərbaycanda turizm. Statistik məcmuə. // – Bakı: 2024. – 104 s.

Abşeron-Xızı iqtisadi rayonunu və əsasən paytaxt Bakını müxtəlif turizm bölgələri ilə birləşdirən zəruri infrastruktur olan yollar turizm fəaliyyəti baxımından əhəmiyyətli rola malikdir. Daxili və xarici səyahətlərin reallaşdırılması üçün bu infrastruktur müntəzəm istifadə olunur. Bu səbəblə, xüsusilə, həftə sonları, tətillər və yay aylarında yolların nisbətən sıxlığı müşahidə olunur. Araşdırmaçılar Bakının mərkəz kimi qəbul edərək onun turistik yollarını və onların fərqli xüsusiyyətlərini 5 istiqamət üzrə müəyyənləşdirirlər. Bunlar aşağıdakılardır: 1) Bakı-Şamaxı-Pirqulu, 2) Bakı-Gəncə-Göygöl, 3) Bakı-Qəbələ-Şəki, 4) Bakı-Quba-Yalama, 5) Bakı-Lənkəran-Astara.[10]

Biz bu turist istiqamətinə 6-cı istiqamət kimi Erməni işğalından azad edilmiş Qarabağı əlavə edərək Bakı-Şuşa- Kəlbəcəri daxil etməyi təklif edirik.

Müasir iqtisadiyyatda investisiyalara hər hansı bir iqtisadi fəaliyyət sahələrinə dövlət dəstəyinin verilməsinin multiplikatoru kimi yanaşmaq olar. Dövlət bu məqsədyönlu iqtisadi siyasəti iqtisadi islahatlar, vasitə və üsullarla həyata keçirir. Dövlət tərəfindən həyata keçirilən investisiya fəaliyyətinə təsiretmə metodları coxvariantlılıq xüsusiyyətinə malikdir. İnvestisiyalaşma prosesini isə həm fərdi, həm də kollektiv təsərrüfat subyektləri tərəfindən həyata keçirilir. İnvestisiya fəaliyyətinin həyata keçirilməsi əsasən ümumdövlət və milli maraqlar prinsipinə uyğun olaraq reallaşdırılır.

Tədqiqat göstərir ki, turizm xidmətinə investisiya yönəldilməsi əsasən aşağıdakı obyektlərə yönəldilir:

- yeni yaradılan turizm obyektlərinə;
- turizm obyektlərinin müasir tələblərə uyğunlaşdırılması üçün yenidən qurulması;
- fəaliyyətdə olan turizm obyektlərinin və ya fəaliyyət sahələrinin genişləndirilməsinə;
- turizm müəssisələrinin əsas istehsal fondlarının modernləşdirilməsinə, dövriyyə vəsaitlərinin investisiya təminatına;
- yeni elmi-texniki məhsulların istehsalına və s.

---

[10] Yeganlı, S.T. Turizm. Dərs vəsaiti. / S.T.Yeganlı, E.M.Hacıyev – Bakı: ABU nəşriyyatı, – 2006. – 324 s.

Azərbaycanda iqtisadiyyata yönəldilən investisiyalara dair statistik göstəricilərə diqqət yetirsək burada iqtisadiyyatda son illərdə daxili investisiyanın xüsusi paya sahib olduğunu müşahidə edərik. Belə ki, son illərdə Azərbaycanda iqtisadiyyata yönəldilən investisiyalarda artım dinamikasını görmək olar. 2023-cü ildə 2022-ci ilə nisbətən iqtisadiyyata yönəldilən investisiyalarda 9,8% artım olmuşdur. Son illərin statistik göstəricilərinə diqqət yetirdiyimiz zaman müşahidə olunur ki, Azərbaycanda turizm xidmətləri ilə əlaqədar xarakterik sahələrə yönəldilən investisiyalar 2018-ci ilə (229,7 milyon manat) nisbətən 2023-cü ildə (479 milyon manat) 2 dəfədən çox artım olmuşdur. Bu artım dinamikası Abşeron-Xızı iqtisadi rayonu üçün də xarakterikdir.

Xidmətlər iqtisadiyyatı, eləcə də turizm xidmətlərinin inkişafında investisiyalar xüsusi rol oynayır. Araşdırmalardan belə qənaətə gəlirik ki, turizm sektoruna yönəldilmiş investisiyalar ölkədə və regionda nəyinki turizm sektoruna, həm də turizmlə əlaqədar bütün sahələrin inkişafını səciyyələndirir. Bu, həm sahibkarlıq mühitinin inkişafına, həm göstərilən xidmətlərin keyfiyyətinə, həm insanların həyat səviyyəsinin artımına, həm də davamlı və dayanaqlı inkişafa səbəb olur.

Fikrimizcə, turizmin investisiya qoyuluşunun tənzimlənməsini aşağıdakı kimi formalaşdırmaq olar:




**Sxem 4. Turizmdə investisiyaların iqtisadi mexanizmləri** (sxem müəllif tərəfindən hazırlanıb).

Araşdırmalar göstərir ki, turizm sektorunda mexanikləşdirmə və avtomatlaşdırma sistemlərinin istifadəsi istisna olmaqla texnoloji yeniliklərin istifadəsinin məhdud olması sektorda məşğulluq potensialının digər sektorlardan fərqlənməsinə səbəb olur. Belə ki, turizm sektoruna istiqamətlənən investisiyalar dolayı yolla regionda əhalinin məşğulluğunun inkişafında əhəmiyyətli rol oynayır. Belə ki, inkişaf etmiş ölkələrin təcrübələrindən də müşahidə etdiyimiz kimi, turizm xidmətləri regionda məşğulluq yaratmaqla insanların gəlirlərinin formalaşmasına və artımına səbəb olur ki, bu da nəticədə işsizliyin minimuma enməsinə, yoxsulluğun aradan qalxmasına və həyat səviyyəsinin yüksəlməsinə səbəb olur.

**Dissertasiyanın "Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti sferası müəssisələrinin inkişaf istiqamətləri"nə həsr edilmiş üçüncü fəslində t**urizm xidməti müəssisələrində dövlət tənzimləmə mexanizminin təkmilləşdirilməsi, Abşeron-Xızı iqtisadi rayonunda turizm infrastrukturu və onun təkmilləşdirilməsi və turizm xidmətlərinin inkişaf istiqamətləri tədqiq edilmişdir.

Dissertasiyada turizmə dair strategiyanın olması turizm xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi, regionların spesifik xüsusiyyətlərinin nəzərə alınması, iqtisadi tənzimləmə vasitələrindən düzgün istifadə edilməsinin zəruriliyi əsaslandırılır. Qeyd edilir ki, regionlarda turizm potensialından səmərəli istifadə edilməsi bir çox amillərin nəzərə alınmasını, bir sıra tənzimləmə tədbirlərinin həyata keçirilməsi təklif edilir.

Araşdırmalar göstərir ki, dövlət turizm xidməti müəssisələrində tənzimləməni iqtisadi və inzibati metodlarla (birbaşa və dolayı yollarla) həyata keçirməlidir. Bu tənzimləmə turizmin inkişafının əsas amili kimi dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olmalıdır. Turizm xidmətinin dövlət tənzimlənməsi mexanizmini aşağıdakı kimi (sxem 5) göstərmək olar:




**Sxem 5. Turizm xidmətinin iqtisadi tənzimlənməsi mexanizmləri**
(sxem müəllif tərəfindən hazırlanmışdır).

Fikrimizcə, turizm xidmətlərinin tənzimlənməsi mürəkkəb quruluşa malik olduğunu nəzərə alaraq hər bir iqtisadi rayonda turizm potensialına, xidmətə müdaxilə miqyası və xarakteri də fərqlənə bilər. Bu müdaxilələrin-tənzimləmənin səviyyəsi regionun və turizmin inkişaf meyllərinə uyğun dəyişə bilər. Hesab edirik ki, göstərilənlərin nəzərə alınması həm turizmin sürətlə inkişafına təsir edə bilər, həm də əhalinin sosial iqtisadi vəziyyəti yaxşılaşar, əhalinin milli gəliri artar, ölkəyə daha çox xarici valyuta daxil olar, əhalinin böyük bir hissəsinin məşğulluğu artar, rifah səviyyəsi yüksələr ki, buda dövlətinin iqtisadi, siyasi, sosial, mədəni inkişafına əhəmyyətli təsir göstərə bilər.

Araşdırmalar göstərir ki, infrastrukturlar istehsal və xidmətlərin ayrılmaz tərkib hissəsidir. Ona görə də turizm infrastrukturu hər bir

rayonun təbii şəraiti, ehtiyatların mövcudluğu, adət-ənənələr, xidmətlər (yol, enerji, su təchizatı, digər xidmətlər və s.) infrastrukturunun olmasını tələb edir. Turizmin əlaqəli olduğu infrastrukturun aşağıdakı kimi formalaşdırılması təklif edilir:




**Sxem 6. Turizm infrastrukturunun istehsal və qeyri-istehsal sahələri ilə əlaqəsi.** (sxem müəllif tərəfindən hazırlanmışdır).

Turizm infrastrukturları mülkiyyət formasından asılı olmayaraq xidmətlərin mühüm elementləri kimi turizm sahibkarlığının normal fəaliyyəti üçün böyük əhəmiyyət daşıyır. Hər bir infrastruktur istehlakçıların tələbatlarının ödənilməsinə yönəldilən xidmət sahələri və obyektləridir. Turizm infrastrukturları, keyfiyyət və səmərəliliyin yüksəldilməsinə xidmət etdiyi üçün onun daha da inkişafı və təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməsi təklif edilir.

Abşeron-Xızı iqtisadi rayonunda turizm infrasturukturunun inkişafına dəstək məqsədilə aşağıdakı istiqamətlərdə islahatların həyata keçirilməsini məqsədəuyğun hesab edilir:

- dövlət tərəfindən turizm xidmətlərinə istiqamətlənmiş məqsədli infrastruktur layihələrinin hazırlanması və icarasının davam etdirilməsi;

- infrastruktur layihələrinin həyata keçirilməsinə daxili və xarici investorların cəlb edilməsi;

- infrastruktur layihələrinin müasir elmi texniki tərəqqinin nailiyyətlərinə müvafiq olaraq icrası və rəqəmsallaşdırmanın təmin edilməsi;

- infrastruktur layihələrinin həyata keçirilməsi zamanı Abşeron-Xızı iqtisadi rayonu ilə regionlar arasında tam inteqrasiyanın təmin edilməsi və s.

Dissertasiyada qeyd edilir ki, turizm xidmətinin inkişaf istiqamətləri hər bir iqtisadi rayonun spesifik xüsusiyyətləri ilə əlaqədar fərqli ola bilər. Həm də inkişafın formalaşmasına amillər bir iqtisadi rayonda bir formada, başqa iqtisadi rayonda isə digər formada təsir göstərə bilər. Bununla belə, göstərilən inkişaf istiqamətlərinin formalaşmasında ayrı-ayrı ünsürlərin rolu və təsirini nəzərə almağı zəruri hesab edilir.

Tədqiqatdan belə nəticəyə gəlmək olar ki, Abşeron-Xızı iqtisadi rayonunda turizm xidməti sferası müəssisələrinin sosial-iqtisadi inkişafının təmin olunmasında və tənzimlənməsində əsas məsələ sosial-iqtisadi səmərəlilikdir. Ölkə iqtisadiyyatının inkişafını şərtləndirən əsas amillərindən olan müəssisələr həm dövlətin iqtisadi cəhətdən güclənməsinə, həm də insanların yüksək həyat səviyyələrinin təminində mühüm rol oynayırlar. Bu səbəbdən də hesab edilir ki, turizmin inkişafı hər bir iqtisadiyyat üçün prioritet olmalıdır.

## NƏTİCƏ

Dissertasiya mövzusu üzrə apardığımız nəzəri ümumiləşmələr və araşdırmalar aşağıdakı nəticələrə gəlməyə əsas verir:

- Dünyada səyahətlərin dini, ticarət və mədəni məqsədlərlə reallaşdığı dövr (Şumerlər, Misir, Qədim Yunanıstan, Roma İmperiyası) turizmin formalaşmasının ilk mərhələsi kimi qiymətləndirilmiş, nəqliyyat, sənayeləşmə və texnologiyanın inkişafı isə turizm xidmətlərinin yeni inkişaf mərhələrinin əsas amilləri kimi əsaslandırılmışdır.

- II Dünya müharibəsindən sonra texnologiyanın intensiv inkişafı turizm məqsədi ilə təşkil olunan səfərlərin səviyyəsinə ciddi

təsir göstərmiş və dünya turizmində ən yeni dövrün formalaşmasına şərait yaratmışdır. Bu konteksdə hər bir region öz potensial imkanlarından maksimum istifadə etməklə orada turizm xidmətlərinin inkişaf etdirilməsinə cəhd etmişdirlər.

- Turizm xidmətlərinin formalaşmasının tarixi inkişaf mərhələləri barədə Azərbaycan alimlərinin fikirlərinə münasibtə bildilərək, müəllif Azərbaycanın işğalda olan ərazilərini azad etməsi və suverenliyini tam bərpa etməsindən sonrakı dövrü yeni dövr kimi qiymətləndirmişdir.
- Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, turizm sosial-iqtisadi inkişafa təsir etməklə ÜDM-in artırılmasına (4,1%), infrastrukturun yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin yüksəlməsinə və əhalinin gəlirlərinin artırılmasına zəmin yaradır. Belə qənaətə gəlinmişdir ki, bununla əlaqədar turizmin davamlı inkişafı strategiyasının modeli təklif edilmişdir.
- Azərbaycan iqtisadiyyatında neftdən asılılığın minimuma endirilməsi istiqamətində illər ərzində həyata keçirilən məqsədyönlü islahatların əsas tərkib hissələrindən biri də turizm sektorunun inkişafına nail olmaqdır. Son illərdə bu istiqamətdə aparılan islahatların əhatə dairəsi daha da artmışdır. Turizm onunla əlaqədar təsərrüfat sahələrinə təsir göstərməklə onların inkişafına stimul yaradır. Azərbaycanda turizmin inkişafına yönələn dövlət siyasətinin əsas məqsədlərindən biri də ölkəni turist ölkəsinə çevirməkdir. Hesab edilir ki,müasir tələblərə uyğun yaradılacaq turizm infrastrukturları və strategiyaları bu məqsədin reallaşmasına təkan verə bilər.
- Müasir iqtisadi münasibətlərdə iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biri də sahibkarlıq fəaliyyətidir. Belə ki, turizm xidməti müəssisələrinə ölkədə və regionda turizmin inkişafının əsas amili kimi yanaşmaq olar. Bu vəziyyət turizm xidməti müəssisələrinin dövlət tərəfindən tənzimlənməsini zəruri şərtə çevirir. Tədqiqatlar göstərir ki, turizm xidməti müəssisələrinin həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri üzrə artırılması, onlara geniş səlahiyyətlərin verilməsi (xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinə), aralarında təkmil rəqabət mühitinin formalaşdırılması və turizm xidməti müəssisələrin daha mütərəqqi və səmərəli üsullarla inkişafı dövlət tənzimləməsinin əsas hədəflərindən biri ola bilər.

- Tədqiqat nəticəsində turizm xidməti müəssisələrinin mövcud vəziyyəti təhlil edilmiş, turizm təşkilatlarının fəaliyyət sahələrini özündə birləşdirən və geniş əhatə dairəsinə malik olan xidmətlərin məcmusu kimi qiymətləndirilmişdir. Bununla əlaqədar turizm xidmətlərinin digər xidmətlərlə əlaqəliliyi müəyyənləşdirilmiş və turizm xidmətlərinin sahibkarlıq istiqamətləri 5 qrup üzrə: 1) sərnişin daşıma; 2) mehmanxana təsərrüfatı ilə əlaqədar; 3) turizm məhsulları istehsalı; 4) səhiyyə, təhsil və sosial xidmətlər; 5) atraksion, əyləncə və rekreasiya kimi təsnifləşdirilmişdir.

- Tədqiqat işində turizm xidmətlərinin reallaşmasına yönləndirilmiş investisiyalardan səmərliliyin təmin olunması ilə əlaqədar təkliflər öz əksini tapmış və aşağıdakı istiqamətlərdə: 1) hüquqi-baza; 2) maliyyə-kredit; 3) vergi; 4) gömrük tənzimlənmə mexanizmləri təklif edilmişdir.

- Azərbaycanda turizmin inkişafına nail olmaq üçün əsas məsələlərdən biri də beynəlxalq təcrübədən yararlanmaqdır. Fikrimizcə, dövlətin turizm xidmətləri üzrə investisiya sahəsində, qiymətlərdə, vergilərdə, sığortada, kreditlərdə və həyata keçirdiyi müvafiq proqramlarda beynəlxalq təcrübəyə əsaslanması ölkədə və regionda turizmin inkişafına əsaslı dəstəyi verə bilər. Həmçinin, əlverişli turizm xidmətləri bazarlarının yaradılması, regionlarda turizmin yüksək inkişafına nail olunması, turizm xidmətlərinin beynəlxalq standartlara uyğun keyfiyyətinin təmini, dövlət və yerli büdcələrdə turizmdən əldə edilən gəlirlərin çəkisinin artması və beynəlxalq turizm bazarına inteqrasiyanın təmini həm respublika, həm də regional səviyyədə turizmin inkişafını səciyyələndirə bilər.

- Abşeron-Xızı iqtisadi rayonunda turizmin inkişafı baxımından bir çox amillərin nəzərə alınması zəruri hesab edilir. Bu amillərə: 1) təbii şərait və ehtiyatların mövcudluğu; 2) infrastrukturun mövcudluğu; 3) otel, pansiyon və digərlərinin mövcudluğu və yenilərinin yaradılması imkanları; 4) turizmlə əlaqədar əmtəə və xidmətlərin satış müəssisələrinin mövcudluğu; 5) regiona investisiya imkanlarının və əlverişli biznes mühitinin mövcudluğu vəziyyəti; 6)yerli əhalinin işlə təmin etmə və məşğulluq imkanları; 7) regionda qeyri-hökümət təşkilatlarının aktivlik

səviyyəsi; 8) mövcud qanunvericilik aktlarını olması və siyasi sərbəstlik və s.

- Tədqiqatda turizm xidmətlərinin dövlət səviyyəsində tənzimlənməsi ilə əlaqədar tədbirlər iqtisadi və inzibati tədbirlər olaraq müəyyənləşdirilmişdir. Bunlara: 1) turizm subyektlərinə dövlət vəsaiti hesabına investisiya layihələrinin güzəştli şərtlərlə təmin edilməsi; 2) turizm xidmətlərinin vergi və ödəmələrdən azad edilməsi, vergi dərəcələrinin azaldılması ilə stimullaşdırılması; 3) turizm obyektlərində qiymətlərin tənzimlənməsi; 4)turizm obyektləri üçün güzəştli kreditlər verilməsi; 5) turizm obyektlərinin sığortalanması; 6) turizm xidmətlərinin proqramlar və turizm sahibkarlığı layihələri ilə tənzimlənməsi; 7) turizm müəssisələrində məşğulluq, sosial müdafiə, gəlirlərin qiymət və xərclərlə tənzimlənməsi; 8) turizm müəssisələrinin yaradılması, planlaşdırma, idarəetmə, normativ-hüquqi aktlarla tənzimlənməsi və s.

- Tədqiqatlar göstərir ki, həm əsas marşrutlar, həm də Abşeron regionu daxili marşrutlar üzrə turizm xidmətlərinin həyata keçirilməsi Abşeron-Xızı iqtisadi rayonunun turizm-rekreasiya ehtiyatlarından səmərəli istifadə baxımından mühüm əhəmiyyət kəsb edir. İşğaldan azad olunan ərazilər üzrə yaradılacaq yeni turizm marşrutlarının Bakı şəhərindən başlaması Abşeron-Xızı iqtisadi rayonunda turizmin inkişafına xüsusi töhfə verə bilər.

Tədqiqatda Azərbaycanda, xüsusilə Abşeron-Xızı iqtisadi rayonunda turizm müəssisələrinin inkişaf istiqamətləri araşdırılmışdır. Araşdırmalar göstərir ki, hər bir iqtisadi rayonun təbii, iqtisadi institutsional təşkilati, innovativ-texnoloji, sosial, ekoloji, hərbi-siyasi və xarici amilləri nəzərə alınmaqla turizmin inkişaf istiqamətləri reallaşdırıla, konkretləşdirilə bilər. Fikrimizcə, Abşeron-Xızı iqtisadi rayonunda turizm xidmətinin inkişaf istiqamətləri iqtisadi və sosial-təşkilati baxımdan fərqləndirilir. İqtisadi baxımdan turizmin inkişaf istiqamətləri aşağıdakı kimi təklif edilir:

- turizmin investisiya layihələrinin güzəştli maliyyələşdirilməsi;
- turizmin xidmətlərinin stimullaşdırılması: vergi yükünün azaldılması, vergi və ödəmələrdən azad olunması;
- turizm xidmətlərinin qiymətlərinin tənzimlənməsi;

- turizm obyektləri və xidmətlə məşğul olan sahibkarların sığortalanması;
- turizm xidmətlərinə güzəştli kredit verilməsində dövlət dəstəyinin təmin olunması;
- turizm obyektləri və infrastrukturlarının yenidən qurulması və təkmilləşdirilməsi;
- turizm xidmətlərinin digər sahə və xidmətlərlə inteqrasiyanın təmin olunması;
- turizm xidmətlərinin proqram və layihələrlə idarə edilməsi, normativ-hüquqi aktlarla tənzimlənməsi;
- turizm xidmətlərinin rəqabət qabiliyyətinin yaxşılaşdırılması, xidmətin beynəlxalq standartlara uyğunlaşdırılması və s.

Turizm xidmətlərinin sosial-təşkilati baxımdan inkişaf istiqamətləri isə aşağıdakı kimi təklif edilir:
- turistlərə nəqliyyat, rabitə, topdan və pərakəndə ticarət, iaşə, səhiyyə, təhsil, bank xidmətlərinin yaxşılaşdırılması;
- mehmanxana, restoran, əyləncə və digər obyektlərin müasir tələblərə uyğunlaşdırılması;
- rayonlarda turizm infrastrukturlarının - yol, su, enerji, kommunikasiya, avtopark, təmir xidmətləri və s. keyfiyyətinin yüksəldilməsi;
- tarixi-mədəni, təbiət, adət-ənənələrin, infrastrukturların reklamı, informasiya və təbliğatının yüksəldilməsi;
- turizm sahibkarlığının formalaşdırılması, turist və sahibkarların mənafelərinin qorunması;
- turistlərin gediş-gəliş sənədləri və qeydiyyatı işinin yaxşılaşdırılması;
- daxili turizmin inkişafı üçün onların respublika və beynəlxalq sərgilərdə iştirakının təmin edilməsi;
- turizm sahibkarlığı üçün ixtisaslı kadrların və elmi təminatının yaxşılaşdırılması;
- turizm obyektlərinin və turistlərin ətraf mühitə baxışlarının yaxşılaşdırılması.

Abşeron-Xızı iqtisadi rayonunda turizmin xidmətlərini həyata keçirən müəssisələrin inkişafı regionda insanların həyat səviyyəsinin təmin olunmasına, iqtisadi fəallığın artmasına, regiona və ölkəyə

turist axının artımına, dövlətin iqtisadi inkişafına, ətraf mühitin inkişafına və turizmlə əlaqədar nəqliyyat, rabitə, ticarət və digər xidmət sahələrin inkişafına güclü təkan verə bilər.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Həsənov S.M. İnsan kapitalı iqtisadiyyatın inkişaf faktoru kimi/ Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Dünya iqtisadiyyatı və Azərbaycanda turizmin inkişaf istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans. Bakı. 05-06 may 2016. s.568-571.
2. Həsənov S.M. Azərbaycanda turizm xidmətlərinin formalaşması və inkişaf istiqamətləri/ "Audit" elmi-praktiki jurnalı № 3. Bakı. 2016. s.46-53.
3. Hasanov S.M. Perspectives and development of the tourism service in Azerbaijan/ 13th Annual International Bata Conference for Ph.D. Students and Young Researchers. Zlin. 2017. p. 136-144. https://digilib.k.utb.cz/bitstream/handle/10563/45981/DOKBAT_2017-13th_International_Bata_Conference_for_Ph.D._Students_and_Young_2017.pdf?sequence=3&isAllowed=y
4. Həsənov S.M. Azərbaycanda turizm xidmətlərinin elektron ticarət vasitəsi ilə reallaşdırılması perspektivləri. Bakı. 2018. Kooperasiya elmi-praktiki jurnalı №2. s.53-60.
5. Həsənov S.M. Turizmin inkişafının müasir dünya iqtisadiyyatnda zəruriliyi/ "Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə Strateji Yol Xəritəsi: insan kapitalının formalaşmasının prioritet istiqamətləri" mövzusunda, professor İ.H. İbrahimovun 70 illik yubileyinə həsr olunmuş respublika elmi-praktiki konfransı. Bakı. 2018. s.403-411.
6. Həsənov S.M. Turizm xidmətlərinin formalaşması və inkişaf perespektivləri (Abşeron iqtisadi rayonunun timsalında). "Audit" elmi-praktiki jurnalı. Bakı. 2018. s.109-117 ;
7. Həsənov S.M. "Turizmin inkişafının müasir dünya iqtisadiyyatnda zəruriliyi". "Milli iqtisadiyyatın perpektiv inkişafı üzrə Strateji Yol Xəritəsi: insan kapitalının formalaşmasının prioritet

istiqamətləri” mövzusunda, professor İ.H.İbrahimovun 70 illik yubleyinə həsr olunmuş Respublika elmi-praktiki konfrans. Bakı. 2018. s. 403-411.

8. Həsənov S.M. Azərbaycanda ictimai turizmin formalaşması xüsusiyyətləri/ Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycanın inkişaf istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransda; Bakı. 2018. s.441-443.

9. Həsənov S.M. Həsənova Ş.E. Azərbaycanda insan kapitalının formalaşdırılması perespektivləri/ Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Azərbaycanda ali təhsilin beynəlmilliləşdirilməsi və rəqabətlilinin yüksəldilməsi istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktiki konfrans. Bakı. 2019. s. 470-475;

10. Həsənov S.M. Azərbaycanda turizm xidmətlərinin elektron ticarət vasitəsi ilə reallaşdırılması perspektivləri/ Bakı Biznes Universitetində təşkil olunmuş “Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində” mövzusunda beynəlxalq elmi-praktiki konfrans. Bakı. 2020. s. 409-413.

11. “Влияние развития туризма на занятость населения”. Журнала “Финансовый бизнес”. Москва. 2022. s. 102-106.



Dissertasiyanın müdafiəsi "04" iyun 2025-ci il tarixində saat 11:00-da Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.10 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəh., H.Cavid pr., 115

Dissertasiya ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir (https://economics.org.az/).

Avtoreferat 23 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.04.2025
Kağızın formatı: A5
Həcm: 38158 işarə
Tiraj: 100